Nərgiz Mirzəyeva

# Nadim Aslam – İngilisdilli Pakistan ədəbiyyatının görkəmli nümayəndəsi

(əvvəli ötən sayımızda)

***Yaradıcılıq yolu.*** ***N.Aslam hadisələrin və qəhrəmanların ətraflı təsvirinə, həyatiliyinə yüksək önəm verən yazıçıdır. O, yaratdığı obrazların yalnız zahiri xüsusiyyətlərinə deyil, onların psixoloji vəziyyətinə, mənəvi inkişafı və süqutuna səbəb olan həyat şərtlərinə xüsusu diqqətlə yanaşır, əsərlərində bədii mükəmməliyinə və fikir dərinliyinə nail olmağa çalışır. Məhz bu səbəbdən, yazıçı aylarla üzərində işlədiyi əlyazmalarını dəfələrlə nəzərdə keçirir, onları dəyişərək yenidən işləyir və bəzən yazdığı səhifələrdən yalnız bir neçə sətir saxlayır. Təsadüfi deyildir ki, yazıçının yazdığı hər bir sətirdə bir-birindən zəngin həyat hekayələrinə, canlı və dəqiq məkan təsvirlərinə rast gəlinir. Ədibin yaratdığı rəngarəng, xəyali dünyalar, sərt Şərq qanunlarının əsarətində yaşayan insan obrazları, oxucuları həmin əsərlərin bir parçası kimi hiss etməyə, qəhrəmanlarla həmdərd olmağa, onların qayğılarını bölüşməyə vadar edir.***

N.Aslamın yaradıcılığında Şərqin ənənəvi cəmiyyəti ilə Qərbin azad dünyası, Şərqin müsəlman ideologiyası ilə Qərbin xristian təfəkkürü, köhnəlmiş dəyərlər ilə müasirlik ideyaları kəsişir. Onun yaradıcılığı əsasən üç əsas mövzuya: siyasət, din və gender bərabərsizliyi məsələlərinə həsr olunub. Sözügedən üç mövzu bir-biri ilə sıx bağlı olduğundan yazıçının bütün əsərlərində vəhdətdə verilir, hər biri digərinin səbəbi və ya nəticəsi kimi təqdim olunur. Beləliklə, onun əsərlərində qadın hüquqsuzluğu yanlış dini təsəvvürlərin, ksenofobiya, dini ekstremizm və terrorizm ideyaları isə siyasi fəaliyyətlərin fəsadları kimi göstərilir.

Siyasətə xüsusi önəm verən yazıçı olaraq N.Aslam Çeslav Miloş, Mahasveta Devi, V.S.Naypol, Con Berqer, Albert Kamyu, Ceyms Boldvin kimi nasirlərin siyasi ruhlu əsərlərini nümunə götürür, yaradıcılığında siyasi xarakterli hadisələri son dərəcə həssas və obyektiv yanaşma ilə canlandırır. Onun əsərləri müharibələrin insanların həyatındakı faciəvi təsirlərini, onların dəhşət doğuran tərəflərini üzə çıxarır. N.Aslam siyasi münaqişələrin etnik, dini və sosial mənsubiyyətindən asılı olmayaraq, bütün insanların həyatına iztirab, itki və ümidsizlik gətirdiyini bəyan edir. Onun “Viran ölkənin gözətçisi” romanının qəhrəmanları - Sovet ordusunun basqını zamanı itkin düşmüş qardaşını axtaran rus qadını Lara, müharibələr nəticəsində ailəsini itirərək Taliban düşərgəsində böyüyən Kasa, “Kor adamın bağçası” əsərində ABŞ-Əfqanıstan müharibəsində sevdiklərini itirmiş Nahid, “Qızıl əfsanə” romanında Amerikalı xəfiyyə tərəfindən həyat yoldaşı öldürülən Nərgis xatirələrində müharibələrin dərin yaralarını daşıyır.

***N.Aslamın yaradıcılığında real həyat hadisələri mühüm yer tutur. Tarixi “üçüncü valideyn” adlandıran yazıçının əsərlərində dünyada baş verən əlamətdar tarixi olayların, eləcə də ABŞ-da 11 sentyabr terror aktının və həmin hücuma cavab olaraq ABŞ-ın Əfqanıstanda hərbi əməliyyatlara başlamasının (Kor adamın bağçası), Bamiyan Buddalarının Taliban qüvvələri tərəfindən partladılmasının (Viran ölkənin gözətçisi) izlərini görmək mümkündür. Yazıçının 2010-cu ildə İngiltərənin “Qranta” jurnalının elektron nəşrində təqdim etdiyi “Haradan başlamalı” essesinin Qərb siyasətinin Pakistana və onun əhalisinin həyatına təsirindən bəhs edən hissəsində Əl-Qaidənin Pakistanda gizlənmiş rəhbərlərinə qarşı ABŞ-ın MKİ-nin Bacaura dron hücumu və 2011-ci il Feysalabadda baş vermiş terrorist aktı xatırlanır.***

N.Aslam terroru dünyəvi problem, bəşəri cinayət kimi dəyərləndirir. Onun əsərlərində terror qrupları və radikal islamçılar Şərq dünyasını vəhşət içində yaşadan, din adı ilə günahsız qanlar tökən, insanları aldadaraq onları terror alətinə və canlı bombalara çevirən canilər kimi təqdim olunur. N.Aslamın təsvirini verdiyi qol kəsmə və daşlama cəzaları, zorlama və mənəvi işgəncələr, uşaqları cəlb etmək üçün oyuncaq şəklində hazırlanmış bombalar (Viran ölkənin gözətçisi), cihadçı qruplar yetişdirmək üçün zorla ələ keçirilmiş məktəblər (Kor adamın bağçası) siyasi münaqişələrin və müharibələrin həqiqi üzünü ifşa edir.

N.Aslamın yaradıcılığını onun daxili dünyasının aynası hesab etmək olar. “Kitablarım mənim əksimdir. Mən yazarkən təcrübələrim, düşüncələrim, xatirələrim və hisslərimdən istifadə edirəm. Mən siyasət, din ilə maraqlanıram ki, bütün bunlar öz ifadəsini kitablarımda tapır”, - deyən yazıçı yaradıcılığında real faktlarla yanaşı öz həyat təcrübəsinə geniş yer verdiyini səsləndirir.

Bir zamanlar mühacir həyatının ağır şərtlərini, yeni sivilizasiyaya uyğunlaşma və həmin sivilizasiya tərəfindən qəbul olunma çətinliklərini yaşamış yazıçı, yaradıcılığında siyasi çəkişmələrlə yanaşı, Pakistan müsəlmanlarının Qərbdəki təcrid olunmuş həyatını, onların yetişdikləri cəmiyyətin patriarxal qanunları yaşatmaq səylərini nümayiş etdirir. Onun “İtən sevgililərə yollar” romanında Pakistan mühacirlərinin qurduqları patriarxal cəmiyyətin qüsurları, İslam qanunları kimi təqdim olunan yalançı ideallar təzahür edir.



N.Aslam əsərlərində Şərq insanlarına qarşı Qərbdə formalaşmış irqçi və qınayıcı mövqeyə də münasibət bildirir. Bu mövqe ədibin “İtən sevgililərə yollar” və “Kor adamın bağçası” romanlarında “günahkar millətin məsum insan yoxdur” məntiqi ilə müsəlmanlara nadan və terrorist kimi yanaşan Qərb insanları simasında daha qabarıq şəkildə əks olunub.

N.Aslamın, demək olar ki, bütün əsərlərində kişi-qadın münasibətlərinə, kişilərin dominantlıq təşkil etdiyi Şərq cəmiyyətində qadın azadlığı məsələlərinə geniş yer verilir. Ailə şiddəti, məcburi nikah, adət və namus cinayətləri, uşaq qətlləri şəklində təzahür edən qadın repressiyası Şərq dünyasının amansız qanunlarını, onun qaranlıq tərəflərini üzə çıxarır. N.Aslamın yaradıcılığının maraqlı xüsusiyyətlərindən biri də onun əsərlərində sözügedən repressiyalardan qurtulmağa, öz həyatının sahibi olmağa çalışan mütərəqqi qadın obrazları ilə yanaşı, həmin repressiyaları doğuran qadınların yer almasıdır. Patriarxal qanunlara uyğun yetişdirilmiş bu qadın obrazları, həmin qanunların pozulmasının dinə və tanrıya xəyanət olduğunu hesab edir və bu səbəbdən, özləri də dərk etmədən cinayətlərin alətinə çevrilirlər. “İtən sevgililərə yollar” romanında qayınının şəxsi həyatını ifşa edərək onun ölümünə səbəb olan Kaukab, “Səhradakı Leyla” qısa hekayəsində oğlan övladı dünyaya gətirə bilmədiyi üçün gəlininə işgəncələr verən Raziyə yaşadıqları patriarxal cəmiyyətin yetirmələridir.

N.Aslam yaradıcılığında kosmopolitizm və qloballaşma ideyalarını təbliğ edir. “Bu sənin ölkən olsa da, mənim planetimdir” prinsipi ilə yaşayan N.Aslam, eyni ideyanı əsərlərində də davam etdirir. Onun qəhrəmanları arasında Şərq ənənələrini Qərb yaşamı ilə birləşdirməyə çalışan gəndərə (Ucala, Çaraq, Mah-Cabin), başqa dinin insanı ilə sevgi yaşayanlara (Əzhər, İmran), mədəniyyətlərarası əlaqə yaratmağa təşəbbüs göstərənlərə (Şəməs) rast gəlinir.

***N.Aslam öz əsərlərində müxtəlif irqlərin, mədəniyyətlərin və dini inancların insanlarını bir yerə toplayır və beləliklə, baş vermiş hadisələri müxtəlif baxış və təhlillərlə təqdim edir. Şərqin şəriət qanunları əsasında yaşayan cəmiyyətində Qərb düşüncəsi və yaşamı mənəvi pozğunluq, kafirlik kimi qəbul olunur, digər tərəfdən Şərq ənənələri və stereotipləri Qərbdə köhnəpərəstlik və fundamentalizm olaraq qiymətləndirilir.***

***N.Aslamın əsərləri müharibə və insan qətllərinin kəskin tənqidi olmaqla yanaşı, dünyanın ehtiyac duyduğu sevgi, dostluq və sədaqət ideyalarının da bariz nümunəsidir. Onun romanlarında, xüsusilə də “Viran ölkənin gözətçisi, “Kor adamın bağçası”” və “Qızıl Əfsanə” əsərlərində şiddət və terrorizm dünyası fonunda vüsət alan və dini, irqi sərhədlər tanımayan sevgi hekayələri yaradılıb.***

***Ədəbi dünyagörüşünə milli ənənə və Qərb mədəniyyətinin təsiri. Pakistanda doğulmuş, lakin həyatının çox hissəsini İngiltərədə keçirmiş N.Aslamın ədəbi dilinin və dünyagörüşünün formalaşmasında Qərb yazıçılarının əsərlərindən etdiyi köçürmələrin, o cümlədən Vasko Popa, İvan.V.Lalis, Con Berqer, Çeslav Miloş, Vislava Şimborskaya, Maykl Ondatce, Con Apdayk, Qor Vidal kimi ədiblərin yaradıcılığının böyük rolu olub.***

Qərb ədəbiyyatında qarşılaşdığı obrazlar yazıçının yaddaşında həkk olunub, yaratdığı qəhrəmanlar da, onların həyat hekayələrində öz əksini tapıbr. Təsadüfi deyildir ki, N.Aslamın “Kor adamın bağçası” romanındakı Mikal obrazını Maykl Ondatcenin “İngilis xəstə” əsərindəki Devid Karavadjonun (onların hər ikisinin də müharibə zamanı barmaqları kəsilmişdir), onun “İtən sevgililərə yollar” romanındakı Cuqnu obrazını Qabriel Qarsia Markesin “Elan edilmiş ölümün xronikası” romanındakı Santiaqo Nasarın (hər ikisi namus qətlinin qurbanı olub) analoqu hesab etmək olar.

N.Aslamın yaradıcılığında Qərb yazıçılarının əsərlərindən bəhrələnərək xəlq etdiyi məkan təsvirlərinə rast gəlmək mümkündür. Yazıçı “Qızıl Əfsanə” romanında insanların sirrlərinin ifşa edildiyi minarənin təsvirini Henri Uodsvors Lonqfellounun eyni adlı poemasındakı Strasburq Kafedral kilsəsindən ruhlanaraq qələmə alıb.

N.Aslamın əsərlərində onun rus klassiklərinə olan marağını da duymaq mümkündür. O, yazılarında Puşkinin, Dostoyevskinin adlarını çəkir, onların əsərlərindən sitatlar gətirir.

Uzun müddət Qərb sivilizasiyasının təsiri altında yetişməsinə baxmayaraq, N.Aslam Pakistan ədəbiyyatını hər zaman dərin sevgi və çoşğunluqla xatırlayır. Yazıçı Faiz Əhməd Faiz, Həbib Calib, Pərvin Şakir, İntizar Hüseyn, Müştaq Əhməd Yusufi və digər Urdu ədiblərinin yaradıcılığı ilə yaxından maraqlandığını və onların əsərlərindən ilham aldığını ifadə edir. O, Qərbin ədəbi ənənələrini klassik urdu ədəbiyyatı ilə qarşılaşdıraraq, Qərbdə formalaşan ənənələrin əsrlər öncə urdu yazıçılarının əsərlərində yer aldığını bildirir. N.Aslam İ.Hüseyni görkəmli italyan yazıçısı, Kalvino ilə müqayisə edir, M.Ə.Yusufini “Pakistanın Nabokovu” adlandırır.

Urdu ədəbiyyatının izləri özünü yazıçının əsərlərində də biruzə verir. N.Aslam “İtən sevgililərə yollar” romanınının qəhrəmanlarına F.Ə.Faizin “Dasht-e-Tanhaii” qəzəlində səslənən “tənhalıq səhrasında” həyat vermiş, “Səhradakı Leyla” əsərini isə onun “Sar-e-Wadi-e-Sina” (Sina vadisi) kitabından təsirlənərək yazıb.

***N.Aslam əsərlərində Şərq ədəbiyyatından misallar da gətirib. O, ‘İtmiş sevgililərə yollar” romanında vətənindən uzaq düşmüş Pakistan mühacirlərinin vətən həsrətini təsvir etmək üçün Abid Tamiminin ‘Dard di Raunaq”(İztirabın canlı tamaşası) şeirinə müraciət etmiş, ‘Kor adamın bağçası” romanında Salman Rüşdinin ‘Məğriblinin son nəfəsi”, ‘Qızıl Əfsanə” romanında isə Firdovsinin ‘Şahnamə”, Məhəmməd İqbalın “Cavidnamə”, Məcid Şeyxin ‘Lahor: Sonu olmayan hekayələr” kitablarından parçalar verib.***

***“Qızın Əfsanə” əsərində, ‘Dante Aligyeri ‘İlahi komediya”nı yazmadan öncə çox güman ki Məhəmməd peyğəmbərin Cənnət və Cəhənnəmə möcüzəvi səfərlərini oxumuşdur” yazan N.Aslam Şərq və Qərb sivilizasiyaları arasında hər zaman ədəbi əlaqələrin olduğunu bir daha vurğulayıb.***

N.Aslam yalnız ədəbiyyatdan deyil, incəsənətin bütün təzahür formalarından faydalanır. “Viran ölkənin gözətçisi” romanını Pakistan rəssamı, Abdur Rahman Çuqtainin rəsminin şərəfinə adlandıran yazıçı, “Qızıl əfsanə” romanında Ayşə və Billu obrazlarını intibah dövrü təsviri sənətinin - Sandro Bottiçellinin “Madonna və nar” (1487), Rafael Santinin “Madonna payızbülbülü balası ilə” (1505-1506), “Madonna qərənfillə” (1506) və Leonardo da Vinçinin “Qayalıqlar bakirəsi” (1483-1486) əsərlərinin təsiri ilə yaradıb.

N. Aslam öz siyasi baxışlarını ifadə edərkən də təsviri sənət nümunələrindən misallar gətirir. O, millətlərarası səddlər çəkən siyasi oyunlardan danışarkən incəsənətə müraciət edərək Frida Kahlonun 1932-ci ildə Meksika və ABŞ sərhədi fonunda çəkdiyi çəhrayı libaslı avtoportretini xatırlayır.

N.Aslamın yaradıcılığında ədibin marksizm ideyaları və islam ənənələri əsasında formalaşmış fəlsəfi görüşləri də diqqətəlayiq yer tutur. Marksist düşüncə tərzini atasının, islam dəyərlərini isə anasının tərbiyəsi ilə mənimsədiyini söyləyən yazıçı, yaratdığı ədəbi nümunələrdə hər iki ideologiyanın vəhdətinə nail olub.

***Göründüyü kimi, N.Aslam yaradıcılığında doğma Pakistanının tarixinə, onun ənənələrinə, insanlarının həyat münaqişələrinə geniş yer verir. Ədibin əsərləri realistik məkan təsvirləri, canlı obrazlar və gerçək insan hekayələri ilə çağdaş Şərq dünyasının ruhunu əks etdirir. N.Aslamın yaratdığı ədəbi nümunələr onun dini fundamentalizm, qadın hüquqsuzluğu, qız uşaqlarının qətli, Şərq ölkələrində baş qaldıran cihadçı qruplar və terrorizm, Qərbin Şərq insanlarına qarşı ədavətli münasibətinə olan tənqidi görüşlərini ifadə edir. N.Aslam Şərq-Qərb mədəni irsinə ikinci həyat verir, əsərlərində hər iki dünyadan əxz etdiyi obrazları, dəyər və ənənələri canlandırır.***

***Uzun müddət Qərb sivilizasiyasının təsiri altında yetişməsinə baxmayaraq, N.Aslam Pakistan ədəbiyyatını hər zaman dərin sevgi və çoşğunluqla xatırlayır. Yazıçı Faiz Əhməd Faiz, Həbib Calib, Pərvin Şakir, İntizar Hüseyn, Müştaq Əhməd Yusufi və digər Urdu ədiblərinin yaradıcılığı ilə yaxından maraqlandığını və onların əsərlərindən ilham aldığını ifadə edir. O, Qərbin ədəbi ənənələrini klassik urdu ədəbiyyatı ilə qarşılaşdıraraq, Qərbdə formalaşan ənənələrin əsrlər öncə urdu yazıçılarının əsərlərində yer aldığını bildirir. N.Aslam İ.Hüseyni görkəmli italyan yazıçısı, Kalvino ilə müqayisə edir, M.Ə.Yusufini “Pakistanın Nabokovu” adlandırır***